**“Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında”**
**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2024-cü il 20 fevral tarixli 24 nömrəli Sərəncamının icrasının təmin edilməsi haqqında**

“Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2024-cü il 20 fevral tarixli 24 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2024-cü il 20 fevral tarixli 24 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”ndan irəli gələn tapşırıqların icrasının təmin edilməsi ilə bağlı İş bölgüsü” (bundan sonra – İş bölgüsü) təsdiq edilsin (əlavə olunur).
2. Energetika Nazirliyinin aidiyyəti struktur bölmələri İş bölgüsündə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti ilə bağlı rüblük məlumatları hər rübdən sonrakı ayın 10-dək Daxili nəzarət şöbəsinə təqdim etsin.
3. Daxili nəzarət şöbəsi struktur bölmələr tərəfindən təqdim edilmiş məlumatlar əsasında İş bölgüsündə nəzərdə tutulmuş tədbirlərin icrası barədə yekun məlumatları hər rübdən sonrakı ayın 15-dək energetika nazirinə təqdim etsin.
4. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin Aparatının aidiyyəti struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
5. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**

*Azərbaycan Respublikası energetika nazirinin*
*__________ tarixli __________ nömrəli əmri ilə*
*təsdiq edilmişdir.*

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2024-cü il 20 fevral tarixli 24 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”ndan irəli gələn tapşırıqların icrasının təmin edilməsi ilə bağlı**
**İş bölgüsü**

| № | Tədbirin adı | İcra müddəti | İcraçı struktur bölmə |
|---|---|---|---|
| **1. İqlim dəyişmələri və “yaşıl artım” sahəsində siyasət** | | | |
| **1.1** | Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən biri olan “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioritetinin icrası istiqamətində tədbirlər görülməsi | 2024-cü il ərzində | Enerji səmərəliliyi şöbəsi<br>Elektrik və istilik enerjisi şöbəsi<br>Neft-qaz şöbəsi<br>BOEMDA |
| **1.2** | Dayanıqlı inkişafın təmin edilməsi məqsədilə qəbul olunacaq yeni dövlət proqramlarında və layihələrində iqlim dəyişmələrinə qarşı tədbirlərin nəzərdə tutulması | 2024-cü il ərzində | Enerji səmərəliliyi şöbəsi<br>Elektrik və istilik enerjisi şöbəsi<br>Neft-qaz şöbəsi<br>İqtisadiyyat şöbəsi<br>BOEMDA |
| **1.3** | “Yaşıl dünya naminə həmrəylik ili” və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı həyata keçirilən tədbirlər arasında əlaqələndirmənin təmin edilməsi | 2024-cü il ərzində | Mətbuat sektoru<br>Enerji səmərəliliyi şöbəsi<br>Beynəlxalq əməkdaşlıq şöbəsi<br>BOEMDA |
| **2. Maarifləndirmə tədbirləri** | | | |

| | | | |
|---|---|---|---|
| **2.1** | Azərbaycan Respublikasının şəhər və rayonlarında “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi | 2024-cü il ərzində | Mətbuat sektoru<br>Protokol xidməti sektoru<br>Enerji səmərəliliyi şöbəsi<br>BOEMDA<br>EMTA |
| **2.2** | Dövlət orqanları (qurumları) və biznes nümayəndələri üçün ətraf mühitin qorunması və “yaşıl fəaliyyət”ə dair təlimlərin təşkil edilməsi | 2024-cü il ərzində | Enerji səmərəliliyi şöbəsi<br>BOEMDA |
| **3. Ətraf mühitin sağlamlaşdırılması tədbirləri** | | | |
| **3.1** | İqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması, karbon dioksid emissiyasının azaldılmasının təbliği və təşviqini, enerjinin bərpa olunan mənbələrdən alınması sahələrində yeni texnologiyaların tətbiqini nəzərdə tutan “Yaşıl İnnovasiya” adlı startap layihələri üzrə müsabiqələrin keçirilməsi* | 2024-cü il ərzində | BOEMDA<br>Elektrik və istilik enerjisi şöbəsi<br>Enerji səmərəliliyi şöbəsi |
| **3.2** | Günəş, külək və su enerjisi kimi bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi üçün dövlət-özəl tərəfdaşlığı əsasında tədbirlər görülməsi* | 2024-cü il ərzində | BOEMDA<br>İqtisadiyyat şöbəsi |
| **3.3** | Ekoloji baxımdan əlverişli “yaşıl” texnologiyaların tətbiqinin genişləndirilməsi | 2024-cü il ərzində | BOEMDA<br>İqtisadiyyat şöbəsi |
| **3.4** | İstifadə olunmuş kağızların təkrar emal müəssisələrinə təhvil verilməsi və elektrik enerjisindən qənaətlə istifadənin təbliğ edilməsi | 2024-cü il ərzində | Mətbuat sektoru<br>Enerji səmərəliliyi şöbəsi |

| | | | |
|---|---|---|---|
| **3.5** | Dövlət orqanlarının (qurumlarının), özəl sektorun, elmi müəssisə və təşkilatların, habelə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının müvafiq milli “yaşıl artım” platformasının yaradılması və bu platforma vasitəsilə milli “yaşıl artım” forumunun təşkili imkanlarının araşdırılması | 2024-cü il ərzində | Mətbuat sektoru<br>Enerji səmərəliliyi şöbəsi<br>İqtisadiyyat şöbəsi<br>BOEMDA |

** Energetika Nazirliyinin əsas icraçısı olduğu tədbirlər*